Пнд, 5 Сен 2022 3:11

Orxan Babayev.pdf, Orxan Babayev.adoc

От: Sevil Allahverdiyeva <allahverdiyeva.sevil@inbox.ru>

Кому: office@barassociation.az

**Vəkillər Kollegiyasının Rəyasət Heyətinin**

**Sədri hörmətli Anar Bağırova.**

Allahverdiyeva Sevil İsmayıl qızı tərəfindən

*(Bakı ş.Yasamal r.,Zərdabi 78V,mənzil 65) (051 710 05 82)*

Vəkillər Kollegiyası Rəyasət Heyəti Aparatının İnsan Resursları şöbəsinin müdiri **Orxan Babayevin** qəbul zamanı Vəkillər Kollegiyasının Rəyasət Heyəti Aparatının adını yüksəklərə qaldıran davranışlar nümayiş etdirdiyinə görə

## TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Sədr Anar Bağırov!

Bu müraciəti yazmaqda məqsədim odur ki, biləsiz, Sizin Sədrlik etdiyiniz Vəkillər Kollegiyasının Rəyasət Heyəti Aparatının İnsan Resursları şöbəsinin müdiri **Orxan Babayevin** qəbulunda olarkən, Orxan bəy mənim müraciətimə həssas yanaşdı, müraciətimi nəzarətə aldı, səlahiyyətləri daxilində mənə düzgün, doğru istiqamət verdi.

Buna görə də, bu cür alicənab, mərifətli müdir haqqında hörmətli Anar bəy, sizə sonsuz təşəkkürlərimi bildirirəm: nə yaxşı ki, belə bacarıqlı, etik-davranış qaydalarına əməl edən, vəzifə səlahiyyətlərini vicdanla yerinə yetirən, insanlıqdan yüksək səviyyədə anlayışı olan şəxsləri işə qəbul etmisiz.

"Vəkil köməkçisi" vəzifəsinə işə qəbul olunduqdan sonra, sənələrimi təqdim etməyim, "vəkil köməkçisi" vəsiqəsiylə təmin olunmağım üçün, bir müddət əvvəl İnsan Resursları şöbəsinin müdiri Orxan Babayevin qəbulunda iştirak etdim.

Orxan Babayev məni səbrlə dinlədi, səlahiyyətləri daxilində mənə kömək edəcəyini bildirdi. Xüsusi olaraq qeyd etməliyəm ki, Orxan bəy qəbul zamanı Rəyasət Heyətinin Sədrinin qəbulunda olan vətəndaş kimi mənim müraciətimə fərdi yanaşdı, öhdəmdə sağlamlıq imkanları məhdud olan övladımın olması səbəbinə görə müraciətimə həssas yanaşdı, müraciətimi nəzarətə alacağını bildirdi.

Orxan Babayevin bu cür davranışı onu göstərir ki, həqiqətən o, humanist, düzgün ailədə tərbiyə almışdır. Ümid edirəm, mənim bu təşəkkür müraciətim, Orxan bəyin şəxsi işinə əlavə edilər.

Bütün bunlar onu göstərir ki, Şöbə müdiri Orxan Babayev sizin qoyduğunuz humanist, mədəni yolla hərəkət edir, sizin tapşırıq və tövsiyyələrinizi vicdanla yerinə yetirir, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin, onun Aparatının adını yüksəklərə qaldıracaq şəkildə iş fəaliyyətini həyata keçirir.

**Xahiş edirəm, mənim adımdan İnsan Resursları şöbəsinin müdiri Orxan Babayevə təşəkkürlərimi çatdırın, Orxan bəyin iş fəaliyyəti izlənərkən mənim təşəkkür müraciətimi nəzərə alın.**

Hörmətlə,

Allahverdiyeva Sevil İsmayıl qızı

Bakı şəhəri, 04 sentyabr 2022-ci il

---

- Orxan Babayev.pdf
- Orxan Babayev.adoc


https://e.mail.ru/message/16623330880287927948/print/?folder_id=500000 2/2